# Muxtar Babayev: Xəzər dənizinin su səviyyəsinin aşağı düşməsi təcili tədbirlərin görülməsini zəruri edir

"Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mühüm nəqliyyat qovşağı kimi, Bakı Limanı regionun iqtisadiyyatında və əməliyyatların dayanıqlılığı üçün meyarın müəyyənləşdirilməsində mühüm rol oynayır. Azərbaycanda keçiriləcək COP29-un strategiyası isə ambisiyaların artırılması və iqlim fəaliyyətinə təkan verməkdir".

AZƏRTAC xəbər verir ki, bunu ADA Universitetində keçirilən "Xəzər Mavi Üfüqlər" seminarının açılış mərasimində "COP29 ərəfəsində İqlim Dayanıqlılığı və Xəzər dənizinin davamlılığı üçün elm və biznesin sinerjiləşdirilməsi" mövzusunun müzakirəsinə həsr edilən tədbirdə COP29-un müəyyən olunmuş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib.

O qeyd edib ki, Azərbaycan COP29-un hamı üçün uğur hekayəsi olmasını təmin etmək üçün bütün ölkələr və maraqlı tərəflərlə fəal şəkildə əməkdaşlıq edir: "COP29 sədrliyinin komandası bütün mövqeləri eşitmək üçün Afrika, Karib hövzəsinin Kiçik ADA dövlətləri, Mərkəzi Asiya, Avropa və Şimali Amerika da daxil olmaqla dünyanın müxtəlif bölgələrinə səfər edib. Biz bütün tərəflərin ehtiyaclarını ədalətli şəkildə təmsil etməyə sadiqik".

Nazir iqlim dəyişikliyinin Xəzər dənizi regionuna təsirindən danışıb: "Regionun ekosisteminin və iqtisadiyyatının əsas komponenti olan Xəzər dənizi iqlim dəyişmələri səbəbindən ciddi problemlərlə üzləşir. Dənizin su səviyyəsinin sürətlə aşağı düşməsi təcili tədbirlər görülməsinə ehtiyac olduğunu göstərir. Son onilliklər ərzində müşahidə olunan azalma qlobal istiləşmənin təsirlərini açıq nümunəsidir".

**AZƏRTAC**
**2024, 10 iyun**